AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN BEYNƏLXALQ UNİVERSİTETİ

İSMAYIL MƏMMƏDOV

# AZƏRBAYCAN TARİXİ

**(Ali məktəblər üçün dərslik)**

***Azərbaycan Respublikası Təhsil Nazirinin 18 noyabr 2004-cü il tarixli 824 saylı əmri ilə təsdiq edilmişdir.***

"Adiloğlu" nəşriyyatı
Bakı – 2005

Az
M 52

ELMİ MƏSLƏHƏTÇİ: **ELŞAD ABDULLAYEV,**
hüquq elmləri doktoru, akademik,
Azərbaycan Beynəlxalq Universitetinin
rektoru

9(414.1)
M51

Elmi redaktor: **Süleyman Məmmədov,**
tarix elmləri doktoru, professor

Redaktor: **Seyidağa Onullahi**,
tarix elmləri doktoru, professor

Rəyçilər: **Əkrəm Zeynalov,**
tarix elmləri doktoru, professor
**İbrahim Zeynalov,**
tarix elmləri doktoru, professor
**Mahir Abdullayev,**
tarix elmləri namizədi, dosent

M 52 İsmayıl Məmmədov, tarix elmləri doktoru, professor.
"Azərbaycan tarixi", dərslik, Bakı, "Adiloğlu" nəşriyyatı 2005,
486 səh.

"Azərbaycan tarixi" dərsliyi tədris proqramlarına uyğun yazılmışdır. Dərslikdə tariximiz ən qədim zamandan XXI əsrin əvvəllərinə qədər izlənmişdir. Kitab tələbələr, müəllimlər, təhsil sistemində çalışanlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

M $\frac{4354212204}{121\text{-}2005}$ sifarişlə

© İ.Məmmədov

*İyirminci yüzilliyin son onilliyində öz dövlət müstəqilliyini bərpa etmiş azərbaycanlılar bəşəriyyətin bütün dövrlərində tarixin səhifələrinə yeni sətirlər yazmışlar.*

*Hazırda ərazisinin iyirmi faizə qədəri yağı düşmənin tapdağı altında olan Azərbaycan Respublikasının ərazisi cəmi 86,6 min km$^2$ olsa da bu Vətən övladlarının milyonlarla kvadrat kilometrlik sahəsi olan dövlət yaratdıqları vaxtlar da olmuşdur. 23 ay yaşamış bolşevik-rus süngüləri ilə məhv edilmiş Azərbaycan Xalq Cumhuriyyətinin ərazisi 114 min km$^2$-dən çox olmuşdur. Sovet işğal rejimi dövründə bu torpaqlar bədxah qonşularımıza pay verilərək gündən-günə "əridilmişdir". 1918-ci ildə 10 min km$^2$ ərazisi olmayan, əzəli Azərbaycan torpaqlarında yaradılıb özünə paytaxt tapa bilməyən indiki Ermənistan respublikası rus havadarlarının əli ilə, torpaqlarımız hesabına öz hüdudlarını 3 dəfə genişləndirmişdir.*

*Lakin biz əminik ki, bu gün Yer kürəsinin 6 milyardlıq əhalisinin 90 %-nin danışdığı 20 dildən birinin daşıyıcısı olan, 250 min km$^2$-lik bir ərazidə yaşayan, Dərbənddən Naxçıvana, Borçalıdan Zəncana, Xəzərdən Göyçəyə yayılan az qala 50 milyonluq Azərbaycan xalqı, həmişə olduğu kimi, yenə də torpaqlarını yağı düşmənlərdən təmizləyəcək, aylı-ulduzlu üçrəngli bayrağımızı yüksəklərə qaldıracaq, çağdaş dünya sivilizasiyasının millətləri içərisində öz layiqli yerini tutacaq və bəşəriyyətin inkişafına öz yeni töhfəsini verəcəkdir.*